# XIX Bakı Caz Festivalı başa çatıb

**XIX Bakı Caz Festivalı amerikalı müğənni və aktrisa Şeril Pepsi Reyli və "Interplay" qrupunun çıxışı ilə başa çatıb. Festivalın yekun konserti "The Jazz Club"da ("Fairmont") baş tutub.**



Gecənin əvvəlində Bakı Caz Festivalının təşkilatçısı və bədii rəhbəri Rain Sultanov və ABŞ səfirliyinin nümayəndəsi Bill Murat tamaşaçılar qarşısında çıxış edib, onları salamlayıblar.

Tədbirdə diplomatik korpusun üzvləri, mədəniyyət və incəsənət xadimləri, cazsevərlər, bakılılar və paytaxtın qonaqları iştirak ediblər.

Şeril Pepsi Reyli daha çox 1988-ci ildə yayımlanan "Thanks for My Child" adlı hit mahnısı ilə tanınır. Vokalistin üslubu özündə qospel, R&B və soul elementlərini birləşdirir. Amerikalı müğənni XIX Bakı Caz Festivalında iştirakla bağlı təəssüratlarını bölüşüb.

"Bu, Azərbaycana ilk səfərimdir. Bakıya dünən gəlmişəm. Ölkəniz gözəldir və Bakı çox füsunkar şəhərdir! Bu festivalda iştirak etdiyimə görə şadam, əvvəllər də onun barəsində eşitmişəm. Belə festivalların keçirilməsi çox vacibdir. Müxtəlif musiqiləri tamaşaçılara, xüsusən də gənclərə təqdim etmək gözəldir! Bu gün mən mahir ifaçıları olan "Interplay" qrupu ilə çıxış edəcəyəm. Hamımız bu tədbirin bir hissəsi olmaqdan şadıq. Mən də Azərbaycan musiqisini dinləmək istərdim. Hələ ki, buna imkanım olmayıb. Bakıdan getməzdən əvvəl bunu mütləq etmək istəyirəm", - deyə musiqiçi bildirib.

"Interplay" qrupu ( Tomaş Henrik (klaviaturalar), Loyrens Kottl (bas gitara), Nataniel Taunsli (zərb alətləri) - caz füzyon janrında çıxış edir. Bu musiqi kollektivi yüksək enerjisi, virtuozluğu, caz, rok və fank elementlərini vahid harmonik palitrada birləşdirmək bacarığı ilə tanınır.

Konsert böyük uğurla keçib və yüksək notda başa çatıb.

Azərbaycan.- 2024.- 29 oktyabr (№ 238).- S.11.